Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# MƏN SABAHA GEDİRƏM

**Osman Sarıvəllinin 110 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2015**

Tərtibçi: **Könül Səmədzadə**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Mən sabaha gedirəm:** O. Sarıvəllinin 110 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait /tərt. ed. K.Səmədzadə; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 34 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**

## TƏRTİBÇİDƏN

Xalq şairimiz Osman Sarıvəllinin poeziyasının öz dadı-duzu, öz rəngi və ahəngi var. O.Sarıvəlli şeiri kökünü ana torağımızdan, ətrini bu torpaqda cücərən otlardan, çiçəklərdən, səsini göylərimizdə süzən quşlarımızdan, nəfəsini iqlimimizdən, şeriyyətini isə ana dilimizin bülbül cəhcəhinə bənzər ahəngindən almışdır. O.Sarıvəllinin yaradıcılığı coxcəhətlidir. Onun şeirlərində elə bir xüsusiyyət vardır ki, dərhal başqalarından fərqlənir. Sadəlik, xalqa yaxınlıq onun şeirlərinin ən mühüm səciyyəsidir. Şeirlərindəki duyğular, düşüncələr, nəcib hisslər bahar gecələrinin ətri ürəkləri oxşayır. Şair xalqın idrakı qarşısında həmişə baş əymiş, öz əməyi ilə kiçik də olsa ona bir töhvə verməyə çalışmışdır.

Osman Sarıvəllinin 110 illik yubileyi ilə bağlı hazırladığımız bu vəsaiti oxucuların ixtiyarına veririk. Ümüdvaram ki, bu metodiki vəsait kitabxanaçıların istifadə edə biləcəkləri vəsaitlərdən biri olacaq. Vəsaitdə şair Osman Sarıvəllinin həyat və yaradıcılığı, əsərlərindən nümunələr verilmişdir. Vəsait iki hissədən ibarətdir.

I hissə: Həyat və yaradıcılığı:

II hissə: Yubiley tədbirlərinin keçirilməsi:

## B Ö l M Ə I:

## HƏYAT VƏ YARADICILIĞI:

Osman Qurbanov (Sarıvəlli ) 1905-ci il 17 dekabrda Qazax bölgəsinin Şıxlı obasında dünyaya göz açmışdı. Uşaqlıq illəri həddən artıq çətin keçmiş, çörək qazanmaq üçün erkən yaşlarından çobanlıq etmişdi. Bütün günü çöllərdə, dağlarda, dərələrdə keçərdi. Hələ yazmağı, oxumağı, bacarmasa da, təbiət bəzən onu ehtizaza gətirər, varlığına hakim kəsilərdi. Başlayırdı zümzümə etməyə, sözlər pıçıldamağa. İllər isə öz axarında idi. Çəkdiyi zillətlərə tap gətirsə də, daha dözmürdü, oxumaq istəyirdi. Axır ki, məqsədinə çatdı. 21 yaşında Qazax Pedaqoji Seminariyasını bitirib, təyinatla üç il Göyçayda müəllim işlədi. 1926-ci ildə Bakıya kursa göndərilən Osman Sarıvəllinin bəxti üzünə güldü. Onu təhsilini davam etdirmək üçün Moskvaya göndərdilər. Moskvada o, Səməd Vurğun, Süleyman Rüstəm, Əli Nazim, Mikayıl Rəfili və başqaları ilə birgə oxudu. Həmin dövrdə Osman Sarıvəllinin işıq üzü görən "Atamın oğlu", "Xram uçur", "Komsomol ordusuna" şeirləri ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. O.Sarıvəlli yaradıcılığında ikinci Dünya Müharibəsi mövzusu əsas yer tutur. Vətəndaşları mübarizəyə, ön cəbhəyə çağırış motivi güclü olan "Vur, başına dönüm, vur", "Sünbül və at nalı", "Vətən eşqinə", "Bir damla qan", "Ağ xələtli qız" və başqa şeirlər yazmışdır. Osman Sarıvəlli 1936-cı ildən Yazıçılar İttifaqında şeir bölməsinə rəhbərlik etmişdi. O.Sarıvəllini sevdirən onun aydın, tez anlaşılan və həmişəlik yaddaşlarda qalan yazı dili, müraciət etdiyi mövzular idi. Süni pafosa onun yaradıcılığında rast gəlmək mümkün deyil.

Əksinə, hər misrasında həyat reallığı, mənzərələr, bənzətmələr, xarakterlər aynada görünürmüş kimi göz önündə canlanır.

O. Sarıvəlli ədəbi fəaliyyətə başladığı illərdən öz əməyini poeziyamızın yüksəlişi və çiçəklənməsi işinə sərf edib, gözəl nəğmələri, lirik şeirləri, poemaları ilə ədəbiyyatımıza yeni hiss və duyğular, yeni motivlər gətirmiş, onun mövzu dairəsini xeyli genişləndirmişdir. O, öz yaradıcılığında xalq poeziyasının nadir incilərindən istifadə edib, bu tükənməz xəzinə əsasında istər məna, istərsə də bədii cəhətdən dəyərli sənət nümunələri yaratmişdir.

Şair O.Sarıvəlli geniş diapazonlu, dərin dünyagörüşünə malik təcrübəli bir sənətkardır. Onun poeziyasında xalqlar dostluğu, vətənpərvərlik, bəynəlmiləlçilik, köhnə kəndin ürək yandıran faciəsi, insanların yaradıcı əməyi, xoşbəxt həyatı daxili bir bağlılıqla bədii şəkildə tərənnüm edilmişdir. O, Sarıvəllinin poeziyası öz ruhu etibarı ilə xalqımızın mənəvi aləminə, arzu və istəklərinə çox yaxındır. Bunun başlıca səbəbi şairin xalq həyatına, məişətinə, adət-ənənələrinə bağlı olmasıdır.

O.Sarıvəlli uşaqlıq və gənclik illərini kənddə keçirmişdir. O, kiçik yaşlarından köhnə kəndin acı, qara günlərinin şahidi olmuş, özü qoyun-quzu otarmış, yalın ayaqlarından qan sıza-sıza dağlarda, çınqıllıqlarda dana-buzov qovmuş, əzab-əziyyətlə böyümüşdür. Bəylərin, mülkədarların əlindən zəhmətkeş kəndlilərin çəkdikləri müsibətləri o öz üzərində hiss etmiş, qəzəbindən dodaqları titrəmişdir:

Dumanlı səhərlər, çənli axşamlar,

Keçəli çadırlar, yeraltı damlar
Olduqca məskənim, olduqca yuvam,
Yamaqlı şalvarım, yamaqlı çuxam
Vüqarlı başımı saldı aşağı,
Cıxdı gözlərimə qəlbimin dağı...

Digər tərəfdən kənd həyatı ilə yaxınlıq onda xalq ədəbiyyatına, xüsusən onun bir qolu olan aşıq şeirinə güclü maraq oyatmışdır. Hələ kiçik yaşlarından dərin bir heyranlıqla aşıqların sazına-sözünə qulaq asmaq, xalq idrakının gözəl inciləri olan bayatı və nəğmələri sevə-sevə əzbərləmək, boranlı dağlarda saçaqları buz bağlamış çoban yapıncısının altında nağılları, dastanları dinləmək onu məftun etmiş, sinəsində nəcib, təlatümlü hisslər oyatmışdır.

# B Ö L M Ə II:

## Yubiley tədbirlərinin keçirilməsi:

Azərbaycan şeirinin təməl daşını qoyanlardan biri qocaman sənətkarımız, görkəmli şair Osman Sarıvəllinin bu il 110 illik yubileyi qeyd olunur. O. Sarıvəlli qayğıkeş, təmiz qəlbli, büllur kimi saf poetik istedada malik görkəmli bir qələm ustası idi. Onun milli ədəbiyyatımızın dirçəlişi ilə bağlı keçdiyi mənalı həyat yolu heç zaman unudulmayacaq. O. Sarıvəlli imzasına nəzər yetirəndə, onun şeirlərini mütaliə edəndə xalqın bədii təfəkkür məhsullarını oxuyub öyrənirsən. Saf və təmiz dil, məzmunun poetik həlli, yüksək bədiilik, nəhayət, hər bir əsərində şair "mən"i O. Sarıvəlli yaradıcılığının çox səciyyəvi cəhətlərindəndir.

Bəli, təqribən yarım əsrlik yaradıcılıq yolu keçmiş görkəmli şair O. Sarıvəllinin bu 110 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında məktəblərdə, ali təhsil ocaqlarında, kitabxanalarda və s. yerlərdə şairin yaradıcılığı ilə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında ilk növbədə yubilyarın yaradıcılığı ilə bağlı sərgi hazırlanır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Osman Sarıvəlli-110", "Doğma elə vurğun şair", "Görkəmli söz ustası", "Həyat vurğunu", "İlhamını torpaqdan alan şair", "Əsil sənət yollarında", "Ömrün nəğmələri" və s. İndi isə "İlhamını torpaqdan alan şair" adlı sərginin nümunəsini veririk:

**Başlıq:**

1. "İlhamını torpaqdan alan şair"
2. Kitablarının nümayişi.
3. Görkəmli insanların şair O. Sarıvəlli haqqında söylədikləri sitatlar.
4. Dövrü mətbuatda nəşr olunan məqalələrin kartotekası.
5. Şeir parçası.

Kəndimiz bilsin ki, şair oğlunun
Nəğməli gülşəni çiçək-çiçəkdir!
Adını dünyaya tanıtmayınca
Köçüb bu dünyadan getməyəcəkdir.

**Xalq şairi O. Sarıvəlli**

**Görkəmli şəxsiyyətlər Osman Sarıvəlli haqqında**

1. O. Sarıvəlli bütün varlığı, poeziyası ilə xalq yaradıcılığına bağlıdır. O, elin yaradıcılıq çeşməsindən kor-koranə qidalanmır, əksinə, bu qaynaqlardan, mənalı tərzdə faydalanır, əsərlərində milli ənənələrimizi çox gözəl uyarla yaşadır.

   **Süleyman Rüstəm**
   **Xalq şairi**

2. O. Sarıvəlli bir şair kimi dünyanın yükünü öz çiynində daşıyan sənətkardır.

   **İsmayıl Şıxlı**
   **Xalq yazıçısı**

3. O. Sarıvəllinin yaradıcılığı xalqımızın taleyi ilə bağlı qüdrətli bir yaradıcılıqdır.

   **Həmid Araslı**

**Ədəbiyyatşünas, professor**

4. Osmanın poeziyası optimist poeziyadır. Onun ən gözəl keyfiyyəti xəlqiliyindədir. Osmanın şeirləri bağdan yenicə qoparılmış ətirli bir qızıl gülə bənzəyir. Belə bir gülün ətrindən doymaq mümkün olmadığı kimi, Osmanın şeirlərini də oxumaqdan doymaq olmur.

**Əhməd Seyidov**

**Professor**

5. Osman poeziyasının xəlqiliyi onun ən gözəl məziyyətidir. O, yaradıcılığının bütün kökləri ilə mənası, məzmunu və forması ilə xalqa bağlı olan şairdir.

**Mirvarid Dilbazi**

**Xalq yazıçısı**

6. “Osman Sarıvəlli millətimizin idrak və qəlb xəzinəsinə dərindən bələd olan işıqlı təfəkkür sahibidir. Onun yaradıcılığında doğma təbiətin gözəlliyini, xaıqımızın mübarizəsindən soraq verən bədii fikirlərin, nəcib duyğuların poetik tərənnümünü görürük”.

**Səməd Vurgun**

**Xalq şairi**

7. Yaddaşımda bir Osman Sarıvəlli yaşayır-el nəfəsli, torpaq canlı, xalq ətirli, təbiət naxışlı, qartal qıylı, tərlan havalı Osman Sarıvəlli! Yaddaşımda bir Osman Sarıvəlli yaşayır-eldən-obadan, adətdən-ənənədən, sazdan-sözdən, azandan-yaylaqdan, dağdan-binədən söz düşəndə qəlbi kövrələn, ruhu incələn, yanağı

allanan, dodaqları titrəyən, yay kimi açılıb-sıxılan Osman Sarıvəlli!

**Zəlimxan Yaqub**
**Xalq şairi**

## Kitablarının nümayişi
























Yuxarida qeyd etdiyimiz kimi, O. Sarıvəllinin poeziyası doğma xalqa, Vətənə, zəhmət adamlarına məhəbbət və məftunluğun gözəl bədii ifadəsidir. Osman Sarıvəlli bədii ədəbiyyata gəldiyi ilk gündən şeirinin, sənətinin mayasını xalqdan almış, onun məna və mahiyyətini, vəzifəsini

dərindən duymuş, həyatın dəyişdirici rolunu aydın dərk etmiş, yaşadığı müddətdə yazıb-yaratdığı qələmini bu amal uğrunda vətəndaş şair kimi işlətmişdir.

O. Sarıvəlli yaradıcılığı ilə oxucuları yaxından tanış etmək üçün şeir müsabiqəsinin keçirilməsi daha məqsədəuyğun olar. Şeir müsabiqəsinin kecirilməsində məqsədimiz oxucuları O. Sarıvəllinin şeirləri ilə yaxından tanış etmək, onlarda şeirə marağı artırmaq, şeiri duymaq, başa düşmək, şeiri intonasiya ilə söyləmək bacarığını gücləndirməkdən ibarətdir.

Oxucuların ifasında Osman Sarıvəllinin "Əlifba dərsi" adlı şeirindən bir parcaya qulaq asaq.

Yolum kəndimizə düşdü bir səhər,
O gün də məktəbi görməyə getdim.
Açıb darvazanı çox ehtiramla
O böyük binanı ziyarət etdim.

Uşaqlıq çağımı saldım yadıma
Şeir dəftərimə xatirə yazdım.
Məcid müəllimin öz şagirditək
Əyləşib dərsinə qulaq da asdım.

Onu da deyim ki, Məcid müəllim
İrəli qaçmağı heç xoşlamazdı...
Əvvəl köhnə dərsi təkrar etdi o,
Sonra da lövhədə bir kəlmə yazdı.
Uşaqlar nə yazdım?
Yaxşı kim deyər?

Oynadı havada balaca əllər:
Müəllim mən deyim...
deyim...deyim...lər
Görən yormadımı o müəllimi?
Yox, yox, hər səmimi sözü körpənin
Yayılır ürəyə sarı yağ kimi...

Uşaqlıq dövrünün öz aləmi var,
Sadə görünsə də o, çox dərindir...
Bizə əziz olan "müəllim" sözü
Uşağın dilində daha şirindir.

Dedi, bir də dedi "baba" sözünü,
O xeyli dayandı "ata" sözündə...
Balalar duydumu? Deyə bilmirəm,
Mən qəhər duymadım onun üzündə...

Bir kəlmə yüz dəfə yazıldı bəlkə,
Səbrinə mat qaldım, o müəllimin!
Sadəcə əlifba öyrətmək deyil,
O, möhkəm özlünü qoyurdu elmin.

"Bünövrə daşları" düşdü yadıma,
Bu gün durmayırsa qocanın özü
Onun məqbərəsi qoy nurla dolsun!
Dedim: bundan belə şeir yazanda
Birinci misramın birinci sözü
Əlifba öyrədən müəllim olsun!

Şeir müsabiqəsindən sonra kitabxanaçı oxucuları Nagıl otağına toplayır. Nağıl otagında kitabxanaçı öz ənənəsinə sadiq qalaraq oxucuları "Nağıl saatı" ilə yaxından tanış edir. Burada yubileylə əlaqədar olaraq sevimli yazıçımız Osman Sarıvəllinin "Özün hünər göstər, özün ad qazan" adlı nağılını kiçik yaşlı oxuculara oxuyur.

Balaca Babəkin ad günü idi. Qohumlar, dostlar, tanışlar onu təbrik etməyə gəlmişdilər. Hamı sevinir, şənlik edirdi. Ata isə fikrə getmişdi. Onun xəyalında xalqımızın qəhrəmanlıqlarla dolu tarixi keçmişi canlıanırdı. Budur, qəhrəman Babək yadellilərə qarşı mübarizə aparır. O, öz əqidəsi yolunda ölümdən belə çəkinmir... Sonra ata xəyalən doğulduğu torpaqla söhbət etdi:

Mənim Azərbaycanım! Öz igid oğullarınla fəxr elə, öyün!. Neçə ki, onlar var, sənə zaval yoxdur. Mən öz doğma balama sənin qəhrəman oğullarından birinin adını vermişəm. Ancaq çox narahatam. Görəsən mənim Babəkim öz adını doğrulda biləcəkmi?

Ata xəyaldan ayrılıb iftixarla öz oğlunu süzdü. Onun düşüncələri səmimi misralara çevrildi:

Quzum, bu gün sənin ad günündür, ad!. Nə olar...Xoşbəxt ol, boya-başa çat. Lakin fayda yoxdur biz qoyan addan, Özün hünər göstər, özün ad qazan.

Bəli, öz oğlunun ad günündə xəyallara dalan, narahatçılıq hissi keçirən həmin ata, xalqımızın sevimli şairi Osman Sarıvəlli idi.

Osman müəllim zəngin, maraqlı bir həyat yolu keçmiş, görüb-götürdüklərini poetik lövhələrlə canlandırmışdır.

Hər şairin öz səsi, öz nəfəsi, öz aləmi, öz yaradıcılıq xüsusiyyəti, sənətkarlıq bacarığı vardır. Bir şair kimi Osman Sarıvəllini başqalarından fərqləndirən müstəqil ədəbi yolu, orijinal üslubu və siması vardır. Elə bu orijinal üslubla bir daha yaxından tanış olmaq üçün, Osman Sarıvəlli yaradıcılığını bir daha nəzərdən keçirək.

O. Sarıvəllinin mövzu dairəsi həmişə geniş olmuş, milli sədləri aşıb beynəlxalq aləmə çıxmışdır. Bu baxımdan, şairin ürəyi əsrin nəbzi ilə həmişə birgə vurmuşdur. O. Sarıvəlli məqalələrinin birində qeyd edir ki, yazıçı sənət göylərinin ala buludları arasında uçarkən qəhrəman xalqımızın müqəddəs arzu və diləklərini, zəngin torpagımızın bərəkətli nemətlərini unutmamalıdır, əksinə onları özü ilə yüksəklərə qaldırmalıdır.

F. Köçərli adına Respublika Uşaq kitabxanasında O. Sarıvəllinin yubileyi ilə bağlı təşkil olunan tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində şair O. Sarıvəllinin "Gətir oğlum, gətir" əsərinin müzakirəsini keçirmək olar.

"Gətir oğlum, gətir" poeması müharibə dövründə-1943-cü ildə yazılıb. Əsərdə konkret olaraq müharibədən, Vətəni qorumağın zəruriliyindən, Vətən uğrunda vuruşan əsgərlərimizin hünərindən, düşmənin insafsızlığından heç nə danışılmır. Şair kənddəki oğluna müraciətdə oranın təbiətini, nağıllarımızı, əfsanələrimizi, aşıq məclislərini xatırladır, öğluna tövsiyə edir ki, şəhərə dönəndə kəndin mənəvi dünyasını da özüylə gətirsin.

O, şəhərdə doğulub böyüyən oğlu Babəki kəndə göndərir. İstəyir ki, övladı da onun özü kimi kəndi, torpağı, və bu torpağın adamlarını, bu adamların mənəvi dünyasını duya bilsin, sevə bilsin. O, oğluna belə müraciət edir:

Mən kənddə doğuldum, sənsə şəhərdə,
Sən beşikdə yatdın, mənsə yəhərdə.
Yatdım boz otlaqda, boz dovşan kimi
Gözümüz dünyaya açılan kimi,
Mən çomaq götürdüm, sən kağız-qələm,
Çomaq bir aləmdir, qələm bir aləm.

"Gətir  oğlum, gətir" əsəri romantik təxəllüyün məhsulu olmaqla, lirik-fəlsəfi poemadır. Burada müəllifin müraciət etdiyi oğlundan özgə konkret obraz, vahid sujet ətrafında inkişaf edən hadisə yoxdur. Ayrı-ayrı nəğmələri bir-birilə bağlayan yeganə amil şairin özü və düşüncələridir... Əziz balasını doğma el-obalarına göndərən şair çox çəkmir ki, darıxır. Daha doğrusu ötən günlər, uşaqlığı, yeniyetmə çağları keçən məkanlar kino lenti kimi onun gözləri önündən keçir. O, illərin həsrəti, nisgili misralara çevrilir:

Günlər keçirmişəm ağlı-qaralı,
Bəzən gülərüzlü, bəzən yaralı,
Yazı qəm çəkmişəm, qışı əziyyət,
Mənə qəsd eləyib bəzən təbiət...

Poemanın hər misrasında öz vətəni, xalqı, torpağı ilə fəxr edən şairin ürək çırpıntıları duyulur. Buna görə də, o, oğlunun simasında gənc nəslə öz elinə, obasına, vətəninə ürəkdən bağlanmağı tövsiyyə edir:

Quzum, könlüm kimi uçmaq istəsən,
Əzəl yaxşı bağlan bu torpağa sən...

Xalqımızın zəngin aləminin əlvan, bədii boyalarla tərənnümü Osman Sarıvəllinin “Gətir, oğlum, gətir” poemasında qırmızı xətt kimi keçir. Elə bu səbəbdən də əsər ədəbiyyatımızım qızıl fonduna daxil olmuş, dönə-dönə xatırlanan poetik bir abidədir. Sevimli şairimiz istər şeirlərində, istərsə də adi söhbətlərində dönə-dönə vurğulayırdı ki, “İlham budaqları quruyacaqdır, hər kimin deyilsə mayası eldən”. Bu dəyərli məntiq-insan, Vətən, Torpaq məfhumları şairin yaradıcılığında həmişə canlı, inkişafa doğru hərəkətdə təsvir olunurdu. Bir sözlə Osman Sarıvəlli poeziyasının müharibə dövrü bir sıra xüsusiyyətlərinə görə o zaman yaranan əsərlərdən seçilir.

Xalq şairi O. Sarıvəllinin yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə tədbirləri xatirə gecəsi də adlandırmaq olar. Ədəbi-bədii gecənin keçirilməsində məqsədimiz oxucuları xalq şairi Osman Sarıvəllinin yaradıcılığı ilə tanış etmək, şairin şeirlərinə, hekayə və povestlərinə diqqəti bir daha artırmaqdan ibarətdir.

Ədəbi-bədii gecə əsasən iki hissədən ibarət olur. Kitabxanaçı belə tədbirlərə iki ay qabaqcadan hazırlaşmalı, tədbirdə iştirak edəcək qonaqları əvvəlcədən müəyyənləşdirməlidir. Tədbirə kitabxanaçı şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, tənqidçiləri, jurnalıstləri və oxucuları dəvət edə bilər. Tədbirin ədəbi hissəsi çıxış və

məruzələrlə başlayır. Tədbirdə iştirak edən qonaqlar O. Sarıvəllinin xeyirxahlığı, nəcibliyi, mehribanlığı, dostluğu haqqında söhbət açırlar. İkinci hissə yəni bədii hissədə şairin şeirlərinə yazılmış mahnılar səsləndirilir, hekayə və povestlərindən səhnəciklər hazırlanıb göstərilir.

"İlhamını torpaqdan alan şair" adlı ədəbi-bədii gecənin nümunəsini veririk. Səhnə gül dəstələri ilə bəzədilir. Şairin portreti səhnənin divarından asılır.



**Aparıcılar səhnəyə daxil olur.**

**I Aparıcı:**

Yazdığım ölkənin, elin olmasa,
Toplayın nə varsa, yazıb-pozduğum.
Məzarım üstündə od vurun yansın,
Xəyalım odlansın, şeirim odlansın.

Bəli, bu sətirlər yubileyini məhəbbətlə qeyd etdiyimiz sevimli şairimiz Osman Sarıvəlliyə aiddir. Gəlin, bir daha sizinlə birlikdə O. Sarıvəllinin həyat və yaradıcılığına nəzər salaq.

Qazaxda qədim bir kənd var Sarıvəlli kəndi. Vaxtilə bu kənd onu tanıdıb, adını ucaldıb. Sarıvəlli Osman oxucuların gözü önündə bir şair kimi böyüyə-böyüyə, yüksələ-yüksələ Osman Sarıvəlliyə çevrilib. Bəli, bu şairin səsi, nəfəsi hələ neçə-neçə poeziya meridianlarını adlayacaq, işıqlı günlərimizin sorağını neçə-neçə obaya, elə yayacaq.

Hanı uşaqlığım, hanı gəncliyim,
Niyə görünməyir, indi hardadır?
Onları kəndimdə qoyub gəlmişəm,
Axtarın yəqin ki, oralardadır.

Kəndimiz bilsin ki, şair oğlunun
Nəğmələr gülşəni çiçək-çiçəkdir.
Adını dünyaya tanıtmayınca,
Köçüb bu dünyadan getməyəcəkdir...

Osman Abdulla oğlu Qurbanov (Sarıvəlli) 1905-ci ildə Qazax rayonunun Gürcüstan sərhədində olan Sarıvəlli kəndində anadan olmuşdur. Müsahibələrinin birində o, anası Tükəzban xalanı böyük məhəbbətlə xatırlayır: “Anam şair təbiətli idi. Xalq mahnılarını, bayatıları çox gözəl bildiyi kimi, özündən də mahnılar qoşardı. Balaca vaxtı mənim üçün qoşub oxuduğu bayatılardan biri indi də qulağımda səslənir:

Agacın göyü, dərdin alem,
Dibinin şöyü, dərdin alem!
Gözümü sana dikmişəm,

Tezcə böyü, dərdin alem!

O. Sarıvəlli öz nisgilli qəlbini elin-obanın mərəkə və məclislərində, xeyrində-şərində eşitdiyi xalq ədəbiyyatı nümunələri ilə ovundurur, aşıqların sazı-sözü, el şairlərinin şirin qoşmaları, xalq nağıl və dastanları onun bədii sözə, şeirə olan həvəsini coşdururdu. Elə bu həvəs O. Sarıvəllini Qazax seminariyasına gətirib çıxarmışdı. O. Sarıvəlli özü etiraf edir ki, "Qazax seminariyası bir çox ziyalılar kimi mənim də ilk və mehriban tərbiyə beşiyim olmuşdur. Seminariyanı bitirib Göyçayın kəndlərində bir qədər müəllimlik etdikdən sonra, 1929-cu ildə Moskva Dövlət Universitetinə daxil olan O. Sarıvəlli yorulmaq bilmədən oxuyur, rus dilini daha dərindən öyrənir, ideyaca mətinləşirdi.

1924-1925-ci illərdən yaradıcılığa başlayan Osman Sarıvəllinin "Dəmir sətirlərim", "Bənövşə", "Şairin hədiyyəsi", "Gətir oğlum, gətir!, "Bahar çiçəkləri", "Yeni dünyanın qapısı", "Balaca dostlar", "Ömür kitabım", "Seçilmiş əsərlər", "İqlimdən iqlimə", "Ömrün keçən günləri" və başqa bir çox kitabları nəşr olunmuşdur.

O. Sarıvəlli şifahi xalq ədəbiyyatının, aşıq sənətinin gözəl biliçisi idi. Saz havalarını dərindən duyur və onlara qəlbən vurgun idi. Özünün etirafına görə, onun ilk şeir məktəbi, ilk şeir müəllimi şifahi xalq yaradıcılığı, məhəbbət dastanları, Vaqif və Vidadi kimi el ruhunda yazan şairlər olmuşdur. Qazax seminariyasında oxuduğu illərdə əsasən qoşma və gəraylı yazan şairin Sabir təsiri ilə yazdığı bəzi satirik şeirləri də olmuşdur.

Osman Sarıvəlli  müstəqil ədəbi yolu, orijinal üslubu olan müqtədir şairdir. Onun ilk kitabçasına toplanan şeirlərin bir hissəsi tərcümeyi-hal xarekteri daşısa da, əsil şair qəlbinin məhsulu olanları da çoxdur.

O. Sarıvəlli poeziyası başdan-başa işıqlı bir poeziyadır. Bu poeziya qayalardan süzülən çeşmələrin suyu kimi dupduru və yaz günəşi kimi işıqlıdır.

O. Sarıvəllinin şeir mövzusu müxtəlifdir: köhnə və yeni kənd, köhnə və yeni həyat, xalqın müsbət adət və ənənələri, sazı və sözü, yeni insanın istək və arzuları, xalqlar dostluğu, Böyük Vətən müharibəsi, Cənubi Azərbaycan xalqının bu günü və gələcəyi, canlı təbiətin, gözəlliyin tərənnümü və s.

Səhnə bahar təravəti ilə bəzədilir. Yaşıl ağaclar güllər, dekorasiyalar səhnədə baharın gəlişindən xəbər verir. Oxucular səhnəyə daxil olur: “Şair və Bağban” şeirini söyləyirlər.

**I Oxucu:**

Boranlı qış çıxır, bahar yetişir
Təbiətdə gizli nə var yetişir,
Daha uzaqlarda parıldayır qar,
İndi cana gəlir otlar, ağaclar.
Bağdayam, görürəm dirçəlir hər yan,
Körpə şitilləri basdırır bağban,
Ümid gözləyir o, hər bir şitildən.
Oturub bağbanı seyr edirəm mən.
Bürüyür xəyallar beynimi yenə...
Qoca göz gəzdirir ara bir mənə:
Ağa mən bağbanam otuz sənədir,

Sənin işin nədir, sənətin nədir?
Əmican, şairəm, şeir yazıram...
Düzü, şairlərlə heç olmaz aram.

**II Oxucu:**
Ay canım, sən yenə bu torpağı de,
Mənə ərik bağı, üzüm bağı de!
Yoxsa ki, nə şeir, nə söz, nə kitab!
Baba, get özünə iş tap, sənət tap!
Çox doğru buyurdun, əmican, bişəkk
Bu da bir sənətdir öyrət, öyrənək!
Demə öz başına bitir ağaclar,
Bunların min dərdi, min azarı var;
Qoparmaq lazımdır yerdən alağı,
Gərək münbit olsun bağın torpağı.
Sənə münbit torpaq lazımsa əgər,
Mənə qanan başlar, duyan ürəklər...
Yaşayan az deyil başsız, ürəksiz,
Yaşamaq olarmı yersiz, çörəksiz?
Bu fidanlar gərək əyri durmasın,
Isti qurutmasın, şaxta vurmasın.
Yazı ağacların boşalsın dibi
Onlar gözəllənsin bir gəlin kimi.
Qərəz...bağban olmaq deyildir asan,
Sən belə işlərdə nə baş tapırsan?..
Əmi, düz deyildir bu dediklərin,
İçində göz açdım mən bitkilərin:
**I Oxucu:**
Hələ qayğısız, bir körpə uşaqkən
Mən az basdırmadım bu şitillərdən.

Hey gül bitirmişəm, ağac əkmişəm,
Əlvan çiçəklərdən şirə çəkmişəm...
Gözüm təbiətin üzündə qaldı,
Onunla göylərə başım ucaldı.
Dostlar əsərimi oxuyub əgər
Könül sevinciylə mənə desələr:
“Xoş ətirli şeirin şah əsərindir”.
O da bu güllərin çiçəklərindir.
Baba, şairmisən, get şeirini yaz.
Sən şair, mən bağban, bizimki tutmaz!
Müxtəlif paltarda görünsək də biz.
Olduqca yaxındır sənətlərimiz.
Mən də bir bağbanam, qanan gərəkdir.
Hər sözüm bir səhər, bir gələcəkdir.
Hər fidan boy atır, bir ağac olur,
Hər çiçək budaqda zərrin tac olur.

**II Aparıcı:** Osman Sarıvəlli özünəməxsus zəngin yaradıcılıq yolu keşmişdir. Uşaqlıq və gənclik illəri aşıq sənəti və xalq yaradıcılığı sahələri ilə əriş-arğac olan bir məkanda keçmiş Osman Sarıvəlii qoşma, gəraylı kimi el ədəbiyyatı yanrlarında əsərlər yaratmışdır.

Dostum, incə barmaqların
Sədəflərin üzündədi.
Mənim meylim bir sazında,
Bir də şirin sözündədi.

Zaya getməz alın tərin,
Bir gün bitər şah əsərin.
Arzuların, diləklərin
Hələ sənin gözündədi.

Osman, ələ alma əsa,
Yaş dolanda batma yasa.
Hər kim yüz il yaşamasa,
Günah onun özündədi.

Şair şəxsi həyatı və ədəbi irsi ilə də xalqa, onun mənəvi aləminə çox bağlı olmuşdur. Osman Sarıvəlli qələmini dramaturgiyada da sınamışdı. O, 1955-ci ildə “Babək” adlı dramını yazmışdır. Əsərin baş qəhrəmanı IV əsrdə Xürrəmilər hərəkatına rəhbərlik etmiş böyük əqidə, müqəddəs amal sahibi olan Babəkdir.

Osman Sarıvəlli yaradıcılığına nəzər salsaq görərik ki, şair balaca dostlarını da unutmayıb. Onun balaca dostları üçün yazıb-yaratdığı şeirlər uşaqların daha çox marağına səbəb olur. Belə şeirlərdən bir neçəsini misal göstərmək olar. Məsələn, “Baban belə demisdi”, “Nə istəsə uşaqlar bizim bağçamızda var”, “Qaranquşlar gələndə”, “Sığırçın”, “Marallar”, “Bahar nəğməsi”, “May bayramı”, “Yaz yağışı” və s.



**Qaranquşlar gələndə**

Yenə quşlar görünür,
Qaranquşlar görünür.

Xoş nəğmələr gətirir,
Təzə xəbər gətirir.

Meh əsir sərin-sərin,
Yaşıl məxmər çöllərin.
Səfası var, səfası...
Gözəldir yaz havası.

Hər il çöllər güləndə,
Qaranquşlar gələndə.
Bağçalara bar gəlir,
Ellərə bahar gəlir.



**Sığırçın**

Qara, zərli tükü var,
Gün düşəndə parıldar.
Budağa qonub odur,
Şaqqıldayıb oxuyur.
Sığırçındır həmin quş,
Ağacda yuva qurmuş.

O yuvadan qaçanda,
Uzaqlara uçanda,
Göyə baxıb hər zaman
Civildəşir acından.
Boynu yoluq balalar,

Gözləyirlər biqərar.

Ana bunu bilirmi,
Gəlir ildırım kimi.
Dövrə vurub havada,
Qərar tutur yuvada...
Nə isə dimdikləyir,
Balaları yemləyir.



**Marallar**

Göy talada uşaqlar,
Çiçək toplayırdılar.
Elə bu andan birdən,
Şaqqıltıyla meşədən,
Sıçraşaraq dalbadal,
Çıxdı bir sürü maral.

Ana öndə qaçırdı,
Elə bil yol açırdı.
Qaranlığı yararaq;

Lap arxada, odur bax
Iri döşlü, buxaqlı,
Başı pərli, budaqlı,
Baxıb dala, qabağa
Məğrur gəlir boz buğa

Marallar tez qəflətən,
Uşaqları görərkən,
Hürküşərək qaçdılar,
Təpələri aşdılar.

Oxucular Osman Sarıvəllinin “Baban belə demişdi” şeirini söyləyirlər.

**I Oxucu:**

Əlvan çiçəklərlə bəzənir eyvan,
Bayram paltarını geyinir anan...
Qohumlar, qonşular iki-bir, üç-bir,
Əlləri çiçəkli tökülüb gəlir.
Gül kimi fərəhlə açılır üzün,
Sənin ad günündür, ay oğul bu gün.
Ömrünün bağında gül açır bahar,
Bunun da öz şövqü, öz cəlalı var...
Hər gələn tez nəzər yetirir sənə...
Hərə bir oyuncaq gətirir sənə.
Düzülür qarşında o hədiyyələr,
Balaca ayılar, atlar, dəvələr...
Gülür umul-umul şeytan gözlərin,
Üzürsən içində al çiçəklərin...

**II Oxucu:**

Nə kaman dincəlir, nə tar dayanır,
Fərəhli gözlərdə sevinclər yanır.
Aləmə sığmayır çalan-çağıran,
Süfrədə yeməklər dəyişir hər an...
“Al şərab” başlara etdikcə əsər,

Mehriban, gülüşlər, şən qəhqəhələr,
Gəzib könülləri quş kimi yenə,
Yüksəlir göylərin dərinliyinə...
Qədəhlər boşalır, dolur yenidən,
Lakin ağır-ağır düşünürəm mən...
Məclis ahəngini bir az dəyişır,
Qonaqlar söz alıb danışır bir-bir
Dünyada hər kəsdən şirindir övlad,
Bizim xalqımızın fəxridir bu ad
Əziz "Babək" adı...
                                        Mübarək olsun!
Sənin sağlığına!
            Xoşbəxt ol, quzum!
Qədəhlər boşalır, dolur yenidən
Lakin ağır-ağır düşündükcə mən,
Görürəm qarşımda bir heykəl durur
Babamdı, minillik alnında qürur.
Bayaqdan dayanıb seyr edir bizi...
Mənalı-mənalı süzüb məclisi,
Üzünü körpəyə tutur ixtiyar:
Mənim də bir kiçik nəsihətim var:
Quzum, bu gün sənin ad günündür, ad...
Nə olar? Xoşbəxt ol, boya-başa çat!..
Lakin, fayda yoxdur biz qoyan addan,
Özün hünər göstər, özün ad qazan!..

Osman Sarıvəlli cismən yazılı, poetik vədinə əməl etməsə də ruhən bizimlədir. Zaman ötüb keçəcək, nəsillər biri digərini əvəz edəcək. Ondan yadigar qalan ədəbi irs isə ən

zəngin sərvət kimi yaşayacaqdır. Axı, doğma torpağı ürəkdən sevənlər əbədiyaşarlıq qazanırlar. Bəli, bu sözləri 110 illik yubileyini qeyd etdiyimiz unudulmaz şairimiz Osman Sarıvəllinin timsalında aşkar görmək mümkündür.

O. Sarıvəlli "Hər kim yüz il yaşamasa, günah onun özündədir desə də, yüz il yaşamaq özünə qismət olmadı. Ancaq zəngin yaradıcılığı yüz illər boyu O. Sarıvəllini yaşadacaq və onu unudulmağa qoymayacaq.

**S O N**

ƏDƏBİYYAT SİYAHISI:

İnternetdə: www. Google. az


1. Sarıvəlli O. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1958.-249 s.
2. Sarıvəlli O. Iqlimdən iqlimə. B.: Azərnəşr, 1963.-138 s.
3. Sarıvəlli O. Mənimlə dünyanı gəzən mahnılar. B.: Azərnəşr, 1966.-270 s.
4. Sarıvəlli O. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1971.-262 s.
5. Sarıvəlli O. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1974.-251 s.
6. Sarıvəlli O. Mən gedirəm sabaha. B.: 1979.-228 s.
7. Sarıvəlli O. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1986.-447 s.
8. Sarıvəlli O. Seçilmiş əsərləri. B.: Azərnəşr, 1987.-448 s.
9. Sarıvəlli O. Seçilmiş əsərləri. B.: Şərq-Qərb, 2004.-208 s.

**Osman Sarıvəllinin 110 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** ***Könül Səmədzadə***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:20.12.2015
Tirajı:100
Pulsuz